AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 YANVAR 2022-ci il BAZAR № 04 (7186) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

# Biz Şuşaya müzəffər xalq kimi qayıtdıq



**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın mədəni və böyük strateji əhəmiyyətə malik şəhəri olan Şuşanın işğaldan azad edilməsindən bir il iki ay ötür. Xalqımızın tarixinə qızıl hərflərlə yazılan şanlı qələbə sevincini yaşayırıq.**

...nın sahibi olublar və Qarabağda Azərbaycan torpağının qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".

(davamı 3-cü səhifədə)




# Biz Şuşaya müzəffər xalq kimi qayıtdıq

**(əvvəli 1-ci səhifədə)**

1988-ci ildən 1993-cü ilin may ayına kimi Azərbaycan Ermənistanın hərbi təcavüzü, işğalı ilə üzləşdi, havadarlarının köməyi ilə Ermənistanın işğalı nəticəsində keçmiş Dağlıq Qarabağdan, o cümlədən ətraf yeddi rayondan didərgin düşənlərin məcburi köçkünlük həyatı 28 ildən çox davam etdi. Münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu səmərəsiz fəaliyyəti ilə ermənilərin torpaq iddiasına həmişə don geyindirməyə çalışdı, danışıqlarda heç bir irəliləyişə nail ola bilmədi.

Hərbi təcavüz nəticəsində Azərbaycanın böyük bir hissəsinin məhsuldar torpaqları zəbt olundu. Ölkə iqtisadiyyatına təxminən 800 milyard ABŞ dollarından çox ziyan vuruldu... İşğal olunmuş ərazilərdə yerli əhalinin qoyub getdiyi bütün əmlak ermənilər tərəfindən talan edildi. Bəli, bu, müharibənin yaratdığı qanlı faciənin rəqəmlərdəki əksidir. Üstəgəl, yüz minlərlə insanın taleyinə, həyatına, malına, mülkünə dəyən ziyan.

Bütün bunlara artıq son qoyulub, qalib Azərbaycan Ordusu bayrağımızı Şuşada dalğalandırır! Prezident İlham Əliyev bu illər ərzində həmişə deyirdi ki, biz, öz əzəli torpaqlarımıza - Qarabağa, Şuşaya, Xankəndiyə qayıdacağıq, dövlət bayrağımız orada dalğalanacaq. Prezidentimiz xalqımıza verdiyi bütün vədləri ardıcıllıqla yerinə yetirir.

Müzəffər Ali Baş Komandanımız Ermənistan adlı dövlətin 30 ildə yaratdığı mifi cəmi 44 günə yerlə-yeksan etdi, işğal altında qalan torpaqlarımızın böyük əksəriyyətini rəşadətli Azərbaycan ordusu böyük zəfərlə azad etdi, "məğlubedilməz erməni ordusu" darmadağın edildi, onlar silah-sursatlarını ataraq qaçmağa başladılar. Təslim aktına imza atdılar. Xalq-iqtidar birliyinin sarsılmazlığı tarixin şərəfli səhifəsinə yazıldı.

Son 29 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın ruhunu, görkəmini dəyişdirə bilməyib. Evlər sökülüb, tarixi abidələr, məscidlər, bulaqlar qurudulub, təbiətə vəhşi münasibət göstərilib, buna baxmayaraq, Şuşa öz milli koloritini saxlaya bilib, onu silməyə düşmənin gücü çatmayıb.

2020-ci il noyabrın 8-də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına müraciətində demişdi:

- Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər Xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq! Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

Prezident İlham Əliyevin yanvarın 5-də imzaladığı Sərəncama əsasən Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilib. Həm də bu il Şuşa şəhərinin 270 illiyi qeyd olunacaq.

**"Əziz Şuşa, sən azadsan!**
**Əziz Şuşa, biz qayıtmışıq!**
**Əziz Şuşa, biz səni dirçəldəcəyik!"**

Cənab İlham Əliyevin bu sözləri hər bir azərbaycanlının qəlbində sonsuz sevinc, qürur, zəfər taxtı qurub, bu kəlmələr otuz ilə yaxın işğalın acı nəticələrini yaşayan qarabağlıların həyatına, gələcəyinə yeni bir ümid verib, onlarda sabaha dərin inam yaradıb. Otuz ildən sonra səslənən bu tarixi sözlər Zəfər sevincini əks etdirir, tariximizin yeni bir səhifəsinə bələdçilik edir.

Şuşanın keşməkeşli tarixi artıq geridə qalıb, bu qədim şəhər yeni tarixinin ən gözəl mərhələsinə qədəm qoyub. Düşmənin dağıtdığı tarixi abidələr yenidən bərpa olunur, burada iri infrastruktur layihələr həyata keçirilir. Şuşa qonaqlarını qarşılayır, şəhər addım-addım öz yeni libasına bürünür. Şuşanın dağlarının başından duman çəkilib, bu şəhərin gecələri nura boyanır, gündüzləri isə gözəllik yaradanların səsi ilə nəfəs alır. Şuşa əyilmədi, sınmadı, bizi gözləyirdi və müzəffər xalq kimi gəldik.

**Salman ALIOĞLU,**
**"Respublika".**

